# Sosial Xartiyanın icmalı



# Avropa Sosial Xartiyasi

## İnsan hüquqlarını müdafiə edən Avropa Şürasının Sazişi

**Avropa Sosial Xartiyası** (bundan sonra "Xartiya" adlandırılacaq) hüquq və azadlıqları müəyyən edir və Üzv Dövlətlər tərəfindən onlara riayətin təmin edilməsi üçün nəzarət mexanizmi təsis edir. 1999-cu ildə qüvvəyə minmiş yenilənmiş Avropa Sosial Xartiyası 1961-cı ilin ilk müqaviləsini tədricən əvəz edir.

8-ci və 9-cu səhifələrdə göstərilən cədvəl müzakirə olunan Xartiyanın hansı dövlətlər tərəfindən imzalandığını və ratifikasiya olunduğunu göstərir.

## Xartiyanın təmin etdiyi hüquqlar:

Xartiyanın təmin etdiyi hüquqlar gündəlik həyatda bütün insanları əhatə edir:

➔ **Yaşayış yeri:**
- adekvat və ucuz mənzillərin əldə edilməsi imkanı;
- evsizliyin azaldılması; mənzillərin tikilməsi siyasətinin bütün aztəminatlı kateqoriyalara hədəflənməsi;
- məcburi köçürtmənin məhdudlaşdırılması prosedurаları;
- əcnəbilərin ictimai mənzillərin və mənzil müavinətlərin ədlə edilməsində bərabər imkanlar;
- ailə ehtiyacları ilə əlaqədar olan mənzillərin tikilməsi və mənzil müavinətləri.

➔ **Sağlamlıq:**
- bütün əhali üçün açıq olan effektiv səhiyyə müəssisələri;
- xəstəliklərin qarşısının alınması siyasəti, xüsusilə sağlam mühitin təmin edilməsi;
- iş yerində sağlamlıq və təhlükəsizliyin qanunla təmin edilməsini və təcrübədə həyata keçirilməsinə yönəldilmiş istehsalat risklərinin aradan qaldırılması;
- analığın müdafiəsi.

### ➔ Təhsil

- pulsuz ibtidai və orta təhsil;
- pulsuz və effektiv peşə istiqamətləndirməsi xidmətləri;
- ibtidai hazırlıq (ümumi və orta peşə-ixtisas), universitet və qeyri-universitet ali təhsil, ixtisasartırma təlimləri daxil olmaqla peşə təlimləri almaq imkanı;
- əcnəbi sakinlər üçün xüsusi tədbirlər;
- əlil uşaqların əsas təhsilə inteqrasiyası;
- əlil insanların təhsil və peşə təlimlərini almaq imkanı.

### ➔ Məşğulluq

- məcburi əməyin qadağan edilməsi;
- 15 yaşından aşağı uşaqların işə götürülməsinə qadağa;
- 15 və 18 yaş arasında gənclər üçün xüsusi iş şəraiti;
- sərbəst seçilmiş iş yerində işləmək hüququ;
- tam məşğulluğun təmin edilməsinə yönəldilmiş iqtisadi və sosial siyasət;
- əmək və iş saatları baxımından ədalətli iş şəraiti;
- cinsi və psixoloji zorakılıqdan müdafiə;
- öz iqtisadi və sosial maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları və sahibkarlar (işəgötürənlər) təşkilatları yaratmaq azadlığı; adı çəkilən ittifaqlara və təşkilatlara daxil olmaq və ya olmamaq azadlığı;
- birgə məsləhətləşmə, kollektiv müqavilələr, barışdırıcılıq və könüllü arbitrajın dəstəklənməsi;
- işdən azad edilmə hallarında müdafiə;
- tətil hüququ;
- əlil insanların işə götürülməsi üçün imkanlar.

### ➔ Hüquqi və sosial müdafiə:

- Uşağın hüquqi statusu;
- Gənc cinayətkarlarla rəftar;
- Kobud rəftar və zorakılıqdan müdafiə;
- Hər hansı istismar növünün (cinsi və ya digər) qadağan edilməsi;
- Ailənin qanunla müdafiəsi (ər-arvadın bir-birinə və uşaqlara qarşı bərabərliyi, ailənin dağılması hallarında uşaqların müdafiəsi);
- sosial müdafiə, sosial təminat və sosial xidmətləri əldə etmək hüququ;
- Yoxsulluqdan və sosial marginallaşmadan müdafiə hüququ;

– Uşaqlığın müdafiəsi;
– Yaşlılara qayğı göstərmək üçün xüsusi tədbirlər.

➔ **İnsanların hərəkət etməsi**
– ailənin yenidən birləşməsi hüququ;
– vətəndaşların ölkəni tərk etmək hüququ;
– sürgün edilmə hallarında prosedur müdafiə tədbirləri;
– immiqrasiya rəsmiyyətlərinin asanlaşdırılması.

➔ **Ayrı seçkiliyə yol verilməməsi**
– qadınların və kişilərin bərabərliyə və məşğulluqda bərabər imkanlara hüququ;
– irqindən, cinsindən, yaşından, dərisinin rəngindən, dilindən, dinindən, fikirlərindən, milli və ya sosial mənşəyindən, sağlamlıq vəziyyətindən və milli azlığa mənsubiyyətindən asılı olmayaraq Xartiyaya daxil olan bütün hüquqların bütün vətəndaşlara, və hüquqi yaşayan/işləyən əcnəbilərə yayılmasının təminatı;
– ailə öhdəlikləri əsasında ayrı-seçkiliyin qadağan edilməsi;
– əlil insanların sosial inteqrasiyaya və icmanın həyatında iştirak etmək hüququ.

# Avropa şurasi və Avropa Sosial xartiyasinin üzv dövlətləri 03/03/2010 olan vəziyyət

| Üzv Dövlətlər | İmzalar | Ratifikasiyalar | Kollektiv Şikayətlər Proseduranın Qəbul edilməsi |
|---|---|---|---|
| Albaniya | 21/09/98 | 14 /11/02 | |
| Andora | 04/11/00 | 12 /11/04 | |
| Ermənistan | 18/10/01 | 21/01/04 | |
| Avstriya | 07/05/99 | 29/10/69 | |
| Azərbaycan | 18/10/01 | 02/09/04 | |
| Belçika | 03/05/96 | 02/03/04 | 23/06/03 |
| Bosniya və Herseqovina | 11/05/04 | 07/10/08 | |
| Bolqarıstan | 21/09/98 | 07/06/00 | 07/06/00 |
| Xorvatiya | 06/11/09 | 26/02/03 | 26/02/03 |
| Kipr | 03/05/96 | 27/09/00 | 06/08/96 |
| Çex Respublikası | 04/11/00 | 03/11/99 | |
| Danimarka * | 03/05/96 | 03/03/65 | |
| Estoniya | 04/05/98 | 11/09/00 | |
| Finlandiya | 03/05/96 | 21/06/02 | 17/07/98 X |
| Fransa | 03/05/96 | 07/05/99 | 07/05/99 |
| Gürcüstan | 30/06/00 | 22/08/05 | |
| Almaniya * | 29/06/07 | 27/01/65 | |
| Yunanıstan | 03/05/96 | 06/06/84 | 18/06/98 |
| Macarıstan | 07/10/04 | 20/04/09 | |
| İslandiya | 04/11/98 | 15/01/76 | |
| İrlandiya | 04/11/00 | 04/11/00 | 04/11/00 |
| İtaliya | 03/05/96 | 05/07/99 | 03/11/97 |

| | | | |
|---|---|---|---|
| Latviya | 29/05/07 | **31/01/02** | |
| Lixtenşteyn | **09/10/91** | | |
| LÏtva | 08/09/97 | 29/06/01 | |
| Lüksemburq * | 11/02/98 | **10/10/91** | |
| Malta | 27/07/05 | 27/07/05 | |
| Moldova | 03/11/98 | 08/11/01 | |
| Monako | 05/10/04 | | |
| Monteneqro | 22/03/05 | | |
| Niderland | 23/01/04 | 03/05/06 | 03/05/06 |
| Norveç | 07/05/01 | 07/05/01 | 20/03/97 |
| Polşa | 25/10/05 | **25/06/97** | |
| Portuqaliya | 03/05/96 | 30/05/02 | 20/03/98 |
| Rumıniya | 14/05/97 | 07/05/99 | |
| Rusiya Federasiyası | 14/09/00 | 16/10/09 | |
| San-Marino | 18/10/01 | | |
| Serbiya | 22/03/05 | 14/09/09 | |
| Slovakiya | 18/11/99 | 23/04/09 | |
| Sloveniya | 11/10/97 | 07/05/99 | 07/05/99 |
| İspaniya | 23/10/00 | **06/05/80** | |
| İsveç | 03/05/96 | 29/05/98 | 29/05/98 |
| İsveçrə | **06/05/76** | | |
| «Makedoniya, keçmiş Yuqoslav Respublikası» | 27/05/09 | **31/03/05** | |
| Türkiyə * | 06/10/04 | 27/06/07 | |
| Ukrayna | 07/05/99 | 21/12/06 | |
| Birləşmiş Krallıq * | 07/11/97 | **11/07/62** | |
| Dövlətlərin sayı 47 | **2** + 45 = 47 | **13** + 30 = 43 | 14 |

Qalın şriftli boz rənglə qeyd olunmuş tarixlər 1961-ci il Xartiyasının imzalanması və ya ratifikasiyası tarixləri ilə uyğun gəlir; digər tarixlər 1996-cı ilin yenilənmiş Xartiyanın imzalanması və ya ratifikasiyası tarixləri ilə uyğundur.

* 1991-ci ilin Dəyişikliklər Protokolunun qüvvəyə minməsi üçün ratifikasiyası tələb olunan dövlətlər. Təcrübədə, Nazirlər Komitəsinin qəbul etdiyi qərara müvafiq olaraq adı çəkilən protokol artıq tətbiq edilmişdir.

X Milli QHT-lərin dövlətə qarşı kollektiv şikayətləri irəli sürmək hüququnu tanımış dövlətlər.

# Sosial Hüquqlar üzrə Avropa Komitəsi

Sosial Hüquqlar üzrə Avropa Komitəsi (bundan sonra "Komitə" adlandırılacaq) Xartiyada əks edilmiş öhdəliklərin yerinə yetirilib-yetirilməməsini müəyyən edir. Komitə Avropa Şurasının **Nazirlər Komitəsi** tərəfindən altı il müddətinə seçilən, bir dəfə təkrar seçilə bilən 15 müstəqil, qərəzsiz üzvdən ibarətdir.
Komitə üzv dövlətlərinin milli qanunvericiliyinin və təcrübənin Xartiyanın müddəalarına (Turin **Protokoluna** uyğun olaraq yenilənmiş Xartiyanın 24-cü Maddəsi) uyğun olub-olmamasını müəyyən edir.

## ➔ Milli hesabatlara əsaslanan monitorinq prosedurası

**Hər il** Üzv Dövlətlər Xartiyanı qanunvericilikdə və təcrübədə həyata necə həyata keçirdikləri haqqında hesabatlar təqdim edir. Hər hesabat Xartiyanın **qəbul edilmiş bəzi müddəalarına** həsr edilir.

Komitə hesabatları yoxlayır və müvafiq ölkələrdə vəziyyətin Xartiya ilə uyğun olub-olmamasına qərar verir. **"Nəticələr"** kimi tanınan Komitənin qərarları hər il nəşr edilir.

Xartiya ilə uyğunsuzluqların aşkar edilməsi halında Komitənin qərarı ilə əlaqədar Dövlət tərəfindən heç bir hərəkətin təşəbbüs edilmədiyi təqdirdə, Nazirlər Komitəsi həmin dövlətə **tövsiyə** göndərərək qanunvericilikdə və/və ya təcrübədə mövcud vəziyyətin dəyişdirilməsini xahiş edir. Nazirlər Komitəsinin işi Xartiyaya üzv olan dövlətlərin hökumətlərinin təmsilçilərindən ibarət olan **Hökumət Komitəsi** və ona yardım göstərən Avropa işəgötürənlər və həmkarlar ittifaqları təşkilatlarını təmsil edən müşahidəçilər tərəfindən hazırlanır.

## ➔ Kollektiv şikayətlər prosedurası

1995-ci ildə imza üçün açılan və 1998-ci ildə qüvvəyə minən protokola uyğun olaraq, Xartiyanın pozulması haqqında şikayətlər Sosial Hüquqlar üzrə Avropa Komitəsinə təqdim edilə bilər.

## Komitəyə şikayət təqdim etmək hüququna malik olan təşkilatlar

– *Proseduranı qəbul edən bütün dövlətlərə münasibətdə:*
1. AHİK, BUSINESSEUROPE və BİT[1] ;
2. Hökumət Komitəsinin bu məqsədlə hazırladığı siyahıya daxil olan Avropa Şurası ilə iştirak statusuna malik qeyri-hökumət təşkilatları (QHT-lər);
3. müvafiq ölkənin işəgötürənlər təşkilatları və həmkarlar ittifaqları.

– *Buna da razılaşan dövlətlərə münasibətdə:*
4. Milli QHT-lər.

Şikayət aşağıdakı məlumatı əks etdirməlidir:

a. şikayəti irəli sürən təşkilatın adı və əlaqə məlumatı;
b. şikayəti təqdim edən və imzalayan şəxsin həmin şikayəti irəli sürən təşkilatı təmsil etmək hüququna malik olmasının sübutu;
c. şikayətin hansı dövlətə qarşı irəli sürülməsi;
d. iddiaya görə Xartiyanın pozulan müddəalarının göstərilməsi;
e. şikayətin səbəbi, yəni müvafiq dəlillər və qoşma sənədlərlə birlikdə müvafiq dövlətin Xartiyanın icra edilməsində hansı müddəalarının pozulmasına yol verdiyini daxil edən məlumat.

Yuxarıda göstərilən 1-ci və 2-ci kateqoriyaya aid olan təşkilatlar tərəfindən şikayət ingilis və ya fransız dilində tərtib edilməlidir. Digər təşkilatların şikayətləri isə (3-cü və 4-cü kateqoriya) müvafiq dövlətin rəsmi dilində və ya rəsmi dillərindən birində hazırlanmalıdır.

Komitə şikayətə baxır və onun rəsmi tələblərə uyğun olması halında həmin şikayəti münasib elan edir.

Şikayətin münasib tanındığından sonra yazılı prosedura işə salınır və tərəflər arasında yaddaş qeydlərinin mübadiləsi baş tutur. Komitə ictimai dinləmənin keçirilməsinə qərar verə bilər.

1 AHİK : Avropa Həmkarlar İttifaqları Konfederasiyası ; BUSINESSEUROPE : öncəki ASİKB (Avropanin sənaye və İşəgötürənlər Konfederasiyaları Birliyi) ; BİT : Beynəlxalq İşəgötürənlər Təşkilatı.

Sonra Komitə şikayətin mətləbinə dair qərar verir və onu aidiyyətı tərəflərə və Nazirlər Komitəsinə **hesabat** formasında göndərir, bu hesabat isə göndərildiyi gündən dörd ay müddətindən sonra ictimaiyyət üçün açıq olur.

Axırda, Nazirlər Komitəsi **qətnamə** qəbul edir. Nazirlər Komitəsi müvafiq dövlətə vəziyyəti Xartiyanın müddəaları ilə uyğunlaşdırılmasını **tövsiyə edə bilər.**

# Xartiyanın müxtəlif dövlətlərdə tətbiq edilməsinin nəticələri.

Monitorinq sisteminin tətbiqi nəticəsində mövcud vəziyyətin Xartiyanın müddəaları ilə uyğun şəklə salmaq üçün dövlətlər öz qanunvericiliyinə və/və ya təcrübəsinə dəyişikliklər edir. Belə nəticələrə dair ətraflı məlumat (və hazırkı şərait) internet saytında yerləşdirilmiş məlumat vərəqələrində əks olunur

➔ **Xartiya barədə daha ətraflı məlumatı harda əldə etmək olar:**

- bütün milli hesabatları və ölkə haqqında məlumat vərəqələrini daxil edən **www.coe.int/socialcharter.** ünvanında yerləşən Xartiyanın vebsaytı;
- Sosial Hüquqlar üzrə Avropa Komitəsinin presedent hüququ haqqında məlumatın əldə edilməsini asanlaşdıran, Onlayn və ya kompakt disklərdə əldə edilə bilən Xartiyanın **məlumat bazası**;
- əsas mətnləri daxil edən **“Mətnlər toplusu”;**
- daim yenilənən **biblioqrafiyanın xülasəsi.**

Sosial Xartiyanın icmalı

*Azeri version*

**Department of the European Social Charter**
**Directorate General of Human Rights**
**and Legal Affairs**
**Council of Europe**
**F – 67075 Strasbourg Cedex**
**social.charter@coe.int**

**Cover: Christophe Nutoni - www.creative-instinct.com**
**Coordination: Directorate of Communication and Research**
**Printed in the Council of Europe workshops**
**2010**